AZƏRBAYCAN RESPUBLİKASININ
ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ

# AzDTN 2.7-6

# YATAQXANA VƏ HOSTELLƏR. LAYİHƏLƏNDİRMƏ NORMALARI

RƏSMİ NƏŞR

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

BAKI-2025

**AzDTN 2.7-6 “Yataqxana və hostellər. Layihələndirmə normaları”** (Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi-Bakı, 2025-ci il, 23 səhifə)

***İşləyib:*** *Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu- mövzu rəhbəri: iqt.üzrə f.d. E.S.Nuriyev, baş mütəxəssis N.N.Salmanova, elmi işçi N.Ş.Seyidova*

***Təsdiqə hazırlayıb və təqdim edib:*** *Texniki normalar, elm və layihəçilərlə iş şöbəsi*

***Təsdiq edilib:*** *Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 2025-ci il 18 iyul tarixli 3-35/3-2-7/2025 nömrəli qərarı ilə*

***Qüvvəyə minib:*** *26 iyul 2025-ci il tarixdən*

***Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:*** *15202507185327*

***İlk dəfə qəbul edilir***

@ AzDŞAK-TN/Q № 0056-2025

**AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ**

# YATAQXANA VƏ HOSTELLƏR. LAYİHƏLƏNDİRMƏ NORMALARI

## 1.Tətbiq sahəsi

Bu Normalar inşa edilən, yenidən qurulan və əsaslı təmir olunan yataqxana və hostel binalarının layihələndirilməsinə dair tələbləri müəyyən edir.

## 2. Normativ istinadlar

Normalarda aşağıda göstərilən normativ sənədlərə istinad edilib:

Azərbaycan Respublikasının Mənzil Məcəlləsi;

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları” (Azərbaycan Respublikası Prezidentinin 08.07.2008-ci il tarixli 796 nömrəli Fərmanı ilə təsdiq edilmişdir);

“Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.04.2018-ci il tarixli 127 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.01.2018-ci il tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03.04.2014-cü il tarixli 94 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.03.2014-cü il tarixli 72 nömrəli qərarı ilə təsdiq edilmişdir);

"Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.04.2005-ci il tarixli 74 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Elektrik qurğularının quraşdırılması Qaydaları” (Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyasının 27.06.2024-cü il tarixli 3-15/3-1-4/2024 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydaları”(Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 04.12.2012-ci il tarixli 07 nömrəli qərarı ilə təsdiq edilmişdir);

“Qida məhsullarının təhlükəsizliyinə və qida dəyərliliyinə gigiyenik tələblər” sanitariya-epidemioloji qaydalar və normativlər. (Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 30.04.2010-cu il tarixli 25 nömrəli əmri ilə təsdiq edilmişdir);

“Fərdi qarajlar, mehmanxana, yataqxana, yaşayış evləri və inzibati binalar üçün yanğın təhlükəsizliyi Qaydaları” (Azərbaycan Respublikası Normativ-hüquqi Aktlarının 31.05.2002-ci il tarixli 05 nömrəli Bülletenində dərc edilmişdir);

| | |
|---|---|
| AzDTN 2.1-1 | Yüklər və təsirlər. Layihələndirmə normaları; |
| AzDTN 2.5-1 | İnşaat konstruksiyalarının korroziyadan mühafizəsi; |
| AzDTN 2.6-1* | Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması; |
| AzDTN 2.7-1* | Avtomobil dayanacaqları; |
| AzDTN 2.7-2 | Yaşayış binaları. Layihələndirmə normaları; |
| AzDTN 2.11-1 | Su təchizatı. Xarici şəbəkə və qurğular; |
| AzDTN 2.11-3* | Binaların daxili su təchizatı və kanalizasiyası. Layihələndirmə normaları; |
| AzDTN 2.12-2 | İsitmə, ventilyasiya və havanın kondisiyalaşdırılması. Layihələndirmə normaları; |
| AzDTN 2.12-4 | Binaların istilik mühafizəsi. Layihələndirmə normaları |
| AzDTN 2.21-1 | Döşəmələr. Layihələndirmə normaları; |
| DTN 2.02-01-97 | Bina və qurğuların yanğın təhlükəsizliyi; |
| DTN 2.04-03-2005 | Səs-küydən mühafizə; |
| DTN 2.04-05-95 | Təbii və süni işıqlandırma; |
| DQT 2.04-101-2001 | Binaların istilik mühafizəsinin layihələndirilməsi; |
| TNvəQ 2.04.09-84 | Bina və qurğuların yanğın avtomatikası; |
| TNvəQ 2.08.02-89* | İctimai binalar və qurğular; |
| TNvəQ 2.08.02-89* normativ sənədinə əlavə metodik vəsait | Ambulatoriya-poliklinika müəssisələri; |
| - | Bina və qurğuların layihələndirilməsində əlillər üçün zəruri olan həyat və fəaliyyət şəraitinin yaradılması üzrə Müvəqqəti Təlimat; |
| TNvəQ III-10-75 | Ərazilərin abadlaşdırılması; |
| STN 62-91* | Əlillərin və məhdud hərəkətli əhali qruplarının ehtiyaclarını nəzərə alaraq yaşayış mühitinin layihələndirilməsi; |
| AZS 906-2022 | Turizm xidmətləri. Yerləşmə vasitələrinin təsnifatı. Minimum tələblər; |
| DÜİST 5746-2003 | Sərnişin liftləri. Əsas parametr və ölçüləri; |
| DÜİST 25772-83* | Pilləkən, eyvan və damların polad hasarları. Ümumi texniki şərtlər; |
| DÜİST 27751-2014 | İnşaat konstruksiyalarının və bünövrələrin etibarlılığı. Ümumi müddəalar; |
| DÜİST 30494-2011 | Yaşayış və ictimai binalar. Yerləşgələrdə mikroiqlim parametrləri; |
| DÜİST 12.4.026-76 | ƏTSS. Siqnal rəngləri və təhlükəsizlik nişanları. |

***Qeyd.*** *Mətn üzrə göstərilən işarələnmələr aşağıdakı kimi oxunur:*
*AzDTN – Azərbaycan Dövlət Tikinti Normaları;*
*DTN – Dövlətlərarası Tikinti Normaları;*
*DQT– Dövlətlərarası Qaydalar Toplusu;*
*TNvəQ – Tikinti Norma və Qaydaları;*
*STN – Sahə Tikinti Normaları;*
*AZS – Azərbaycan Respublikasının Dövlət Standartı;*
*DÜİST – Dövlət Ümumittifaq Standartı (Dövlətlərarası Standart).*

## 3. Əsas anlayışlar

Normalarda aşağıdakı əsas anlayışlardan istifadə olunmuşdur:

**Hostel** - yerləşmə xidmətini, əsasən paylaşılan qonaq otaqlarında göstərən, ümumi istifadə edilən sanitariya qovşağı və səhər yeməyi xidməti təqdim etmək imkanı olan mətbəx ərazisinə malik yerləşmə vasitəsi;

**taxça-mətbəx** - qabyuyan, elektrik sobası (elektrik bişirici panel və qızdırıcı dolab) və mexaniki sorucu-vurucu ventilyasiya ilə təchiz edilmiş, yemək hazırlamaq üçün nəzərdə tutulmuş, lakin yemək üçün sahənin olmadığı köməkçi yerləşgə;

**yataqxana** - ümumi istifadəli yerləşgələrlə qarşılıqlı əlaqəli yaşayış otaqlarından ibarət, müvəqqəti yaşayış üçün bina;

**yataqxananın yaşayış bölməsi** - ümumi istifadəli yardımçı otaqlarla birləşdirilmiş yaşayış otaqları qrupu;

**yerləşmə vasitələri** - ödənişli əsaslarla yerləşdirmə xidməti göstərən mehmanxanalar, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən mehmanxana tipli obyektlər və müvəqqəti yaşayış üçün nəzərdə tutulmuş digər tikinti obyektləri;

**fancoil** – istilik sistemində istifadə olunan və yerləşgələrdə havanın temperaturunu tənzimləyən qurğu.

## 4. Ümumi müddəalar

**4.1.** AZS 906-nın tələblərinə uyğun olaraq, yataqxana və hostellər fiziki şəxslərin müvəqqəti yerləşməsi üçün nəzərdə tutulur.

Yataqxanalar Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 93-cü maddəsinə uyğun olaraq təşkil edilən xüsusi təyinatlı mənzil fonduna daxil olan yaşayış sahələridir.

Hostellər fiziki şəxslərin yerləşməsi üçün nəzərdə tutulan, AZS 906 dövlət standartının tələblərinə uyğun olaraq fəaliyyət göstərən yerləşmə vasitəsidir.

**4.2.** Yataqxana və hostellərin tutumu şəhərsalma və tikintiyə dair normativ sənədlərə, həmçinin layihə tapşırığına əsasən müəyyən edilir.

**4.3.** Tutumuna görə hostellər aşağıdakı kimi bölünür:

- kiçik – 25 nəfərə qədər;
- böyük – 25 nəfərdən çox.

**4.4.** Yataqxanalar vətəndaşların işlədiyi, xidmət keçdiyi və təhsil aldığı müddət ərzində yaşaması üçün nəzərdə tutulan yaşayış sahəsi kimi təyin olunur.

**4.5.** Yataqxanalar bu Normaların 4.4 bəndində göstərilən məqsədlər üçün xüsusi olaraq inşa edilmiş və ya təchizatı yenilənmiş binalar və ya onların hissələrində yerləşir. Yataqxanalar TNvəQ 2.08.02-nin tələblərinə uyğun olaraq yaşayış yerləşgələri olan ictimai binaların 1-3-cü mərtəbələrində yerləşdirilə bilər.

**4.6.** “Bina və qurğuların layihələndirilməsində əlillər üçün zəruri olan həyat və fəaliyyət şəraitinin yaradılması üzrə Müvəqqəti Təlimat”ın tələblərinə uyğun olaraq, yeni tikilən və yenidən qurulan yataqxana və hostellərin əlilliyi olan şəxslər üçün əlçatan olması təmin edilməlidir.

**4.7.** Ümumi otaq sayı 20 və daha çox olan hostel və yataqxanalarda yaşayış otaqları ümumi otaq sayının 5%-i həcmində, otaq sayı 20-dən az olduqda və təkərli oturacaq təyin edilmiş, eləcə də görmə qabiliyyəti məhdud əlilliyi olan şəxslərin yerləşdirilməsi nəzərdə tutlduqda yaşayış otaqları STN 62-nin tələbləri nəzərə alınmaqla layihə tapşırığına əsasən müəyyən edilir.

**4.8.** Yataqxana və hostellərin TNvəQ 2.08.02-nin və bu Normaların 7-ci bölməsinin tələbləri nəzərə alınmaqla mansarda mərtəbəsində layihələndirilməsinə yol verilir.

**4.9**. Yataqxanaların və 50-dən çox yer sayı olan hostellərin giriş-çıxış yerlərində, mərtəbələrin dəhlizlərində, ictimai-iaşə zonalarında 24 saat işlək vəziyyətdə olan müşahidə kameraları quraşdırılmalıdır.

**4.10.** Yataqxana və hostellərin yerləşgələrinin sahəsinin, tikinti həcminin, mərtəbə sayının, hündürlüyünün və yeraltı hissələrinin dərinliyinin hesablanması qaydaları bu Normaların Əlavə 1-də verilmişdir.

## 5. Yataqxana və hostel binalarının ərazilərinə dair tələblər

**5.1.** Yataqxanalarda bir sakinə düşən minimal torpaq sahəsi bu Normaların Əlavə 2-də verilmişdir.

Hostellərdə bir sakin üçün minimum torpaq sahəsi normalaşdırılmır.

**5.2.** Avtomobil və velosiped dayanacaqlarının mövcudluğu, onların sahəsi, tələb olunan yer sayı və əndazələri AzDTN 2.7-1*-in tələbləri nəzərə alınmaqla layihə tapşırığına əsasən müəyyən edilir.

**5.3.** Yataqxana və hostellərin ərazisində təsərrüfat, həmçinin istirahət və əyləncə zonalarının salınması zərurəti layihə tapşırığı ilə müəyyən edilir.

**5.4.** Yataqxanaların ərazisində uşaq oyun meydançaları üçün sahə ayrılmalı və avadanlıqlarla təchiz olunmalıdır. Uşaq oyun meydançaları binanın pəncərə açırımı olan xarici divarından 12 m-dən az olmayan məsafədə yerləşdirilməlidir. Uşaq oyun meydançalarında avadanlıqlara tələblər bu Normaların Əlavə 8-də verilmişdir.

**5.5.** Yataqxana və ya hostel binaları ilə mövcud, eləcə də layihələndirilən yaşayış və ictimai binalar arasındakı məsafə “Ara məsafəsi ilə bağlı müfəssəl Qaydalar”a uyğun olaraq müəyyən edilir.

**5.6.** Yataqxana və hostellər layihələndirilərkən AzDTN 2.6-1*-in tələblərinə əməl etməklə onların ictimai nəqliyyat dayanacaqlarına yaxın məsafədə yerləşdirilməsi tövsiyə olunur.

**5.7.** Yataqxana və hostellərin həyətyanı sahələrinin abadlaşdırılması AzDTN 2.6-1*, TNvəQ 2.08.02-yə əlavə metodik vəsait, TNvəQ III-10, STN 62-yə müvafiq nəzərdə tutulmalıdır.

**5.8.** Yataqxana və hostellər ayrıca bir binada yerləşdirilərkən yaşıllıq faizi (yaşıllıq salınması üçün nəzərdə tutulan sahənin yataqxana və hostellərin tikintisi üçün ayrılmış əraziyə nisbəti) “Yaşayış məntəqələrinin yaşıllıqla təmin edilməsi Normaları”nın tələblərinə müvafiq olaraq qəbul edilir.

**5.9.** Yataqxana və hostellərə yol və keçidlər TNvəQ 2.08.02-nin tələblərinə müvafiq layihələndirilməlidir.

Bina və qurğularda yer və ya birinci mərtəbə səviyyəsində birbaşa giriş və keçidlər TNvəQ 2.08.02-yə uyğun olaraq layihələndirilməlidir.

**5.10.**Yataqxana və hostellərə girişlər atmosfer yağıntılarından mühafizə məqsədi ilə qurğularla təchiz edilməlidir.

Vestibül-giriş qrupu səviyyəsindən liftlərə girişin planlaşdırma həlləri yer səviyyəsindən minimum fərqlə nəzərdə tutulmalıdır.

Yataqxanaların girişində səviyyələr fərqi olduqda panduslar nəzərdə tutulmalıdır. Pandusun eni, mailliyi, kənarları və tutacağı TNvəQ 2.08.02-nin tələblərinə uyğun qəbul edilməlidir.

**5.11.** Yataqxanalarda yerləşdirilmiş ictimai iaşə müəssisələrində təsərrüfat məqsədli girişin, yükboşaltma meydançasının və sanitariya tələblərinə uyğun xüsusi yerlərdə tullantı tutumlarının nəzərdə tutulması tövsiyə olunur. AzDTN 2.7-2-ə əsasən yükboşaltma meydançası binaların əsas girişləri tərəfdən nəzərdə tutulmamalıdır.

Məişət tullantılarının məqsədyönlü yerləşdirilməsi, kənarlaşdırılması, zərərsizləşdirilməsi və utilizə edilməsi tədbirləri "Şəhərlər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"na müvafiq nəzərə alınmalıdır.

**5.12.** Ayrıca yataqxana və hostel binalarının ərazisində tullantıların müvəqqəti saxlanması üçün konteyner meydançası nəzərdə tutulmalıdır. Konteyner meydançalarından ictimai iaşə müəssisələrinə, bədən tərbiyəsi, uşaq oyunları və böyüklərin istirahəti üçün nəzərdə tutulan meydançalara qədər məsafə 20 m-dən az olmamaqla qəbul edilməlidir.

**5.13.** 20-dən çox yerlik iaşə müəssisələrində əsas qida məhsulları üçün yükləmə yerləşgələri nəzərdə tutulmalıdır.

**5.14.** İctimai iaşə müəssisələrinin yükboşaltma zonasının, yaşayış və ictimai yerləşgələrin pəncərələrindən vizual və səs-küyə qarşı izolyasiya olunması nəzərdə tutulmalıdır. Yükboşaltma sahəsinin üzərində günəş şüaları və atmosfer təsirlərindən mühafizə qurğuları (talvar və s.) nəzərdə tutulmalıdır.

**5.15.** Yükboşaltma sahələrinin ölçüsü layihə tapşırığına əsasən müəyyən edilir.

**5.16.** Yataqxana və hostellər mədəni-tarix obyektlərinin ərazisində yerləşdikdə memarlıq-bərpa tapşırığına uyğun olaraq “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə riayət olunmalıdır.

**5.17.** Yataqxana və hostellər mühafizə olunan təbiət ərazilərində yerləşən torpaq sahələrində (müalicə-istirahət məkanları və kurortlar, təbiət parkları, qoruqlar, təbiət abidələri, botanika bağları və s.) layihələndirilən zaman “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinə riayət olunmalıdır.

**5.18.** Yataqxana və hostellərin ərazilərində siqaret çəkmək üçün xüsusi təchiz olunmuş yerlər “Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər”ə müvafiq nəzərdə tutulmalıdır.

## 6. Həcm-planlaşdırma və konstruktiv həllərə dair tələblər

### 6.1. Yataqxana və hostellərin həcm-planlaşdırma həllərinə dair ümumi tələblər

**6.1.1.** Yataqxana və hostel binaları, onların memarlıq həlləri, həmçinin texniki avadanlıq və ləvazimatları şəhərsalma və tikintiyə dair normativ sənədlərin və AZS 906-nın tələblərinə uyğun olmalıdır.

**6.1.2.** Yataqxanalar çoxfunksiyalı binaların tərkibində yerləşdirildikdə, həmçinin digər müəssisə və təşkilatlarla və ya yaşayış binaları ilə bloklaşdırılmış olduqda, onlar planlaşdırma üsulu ilə ayrılmalı, təcrid olunmalı və ayrıca giriş və pilləkən qəfəsləri ilə təmin olunmalıdır.

**6.1.3.** Azərbaycan Respublikasının şəhərsalma və tikintiyə dair normativ sənədlərinin tələblərinə uyğun olaraq yataqxana və hostellərin tərkibində planlaşdırma üsulları ilə bir-birindən ayrılmış (divarlar və ya arakəsmələrlə) yaşayış, ictimai və xidmət yerləşgələri qrupları nəzərdə tutulmalıdır.

**6.1.4.** Layihə tapşırığına əsasən yataqxana və hostellərin binalarında əlavə xidmət (tibb, bərbər, ticarət, ictimai iaşə, sauna və s.) göstərən müəssisələrin otaq və sahələrinin yerləşdirilməsi və iş rejimi "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununun və "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nın tələblərinə cavab verdiyi halda, yataqxana və hostel binalarının yalnız ictimai məqsədlər üçün ayrılmış zonalarında layihə tapşırığına əsasən yol verilir.

**6.1.5.** Yaşayış otaqlarında DÜİST 25772-nin tələblərinə uyğun olaraq məhəccərinin hündürlüyü 1,2 m-dən az olmayan eyvan və lociyaların quraşdırılmasına yol verilir.
Eyvanın eni 1,2 m-dən, lociyanın eni isə 1,4 m-dən az olmamalıdır.

**6.1.6.** Mərtəbə sayı 3-dən çox olan yataqxanalarda tibb təyinatlı otaqlar (həkim kabineti, prosedur, izolyasiya otağı) layihələndirilərkən onlar birinci mərtəbədə yerləşdirilməli və izolyasiya otağından ayrıca çıxışlarla təmin olunmalıdır.

**6.1.7.** Yataqxana və hostellərdə inzibati yerləşgələrin tərkibi və minimal sahələri bu Normaların Əlavə 3-də verilmişdir.

**6.1.8.** Yataqxana və hostellərdə idman məşqləri üçün otaqların səs izolyasiyası DTN 2.04-03-ün tələblərinə uyğun təmin olunmaqla kürsülük, birinci və ya mansarda mərtəbəsində yerləşdirilməsinə yol verilir.
Layihə tapşırığına əsasən yataqxanalarda idman zalları ayrıca binada, binaya bitişik və ya binanın daxilində olmaqla layihələndirilə bilər.

**6.1.9.** Kürsülük mərtəbəsində ümumi yuyunma otaqları, sanitariya qovşaqları, məişət avadanlığı və çirkli camaşırların saxlanılması və yuyulması üçün anbarlar, paltar və ayaqqabıqurutma otaqları, texniki və digər yardımçı yerləşgələrin nəzərdə tutulmasına yol verilir.
200 və daha çox yerlik yataqxana və hostellərdə özünəxidmət camaşırxanaları nəzərdə tutulmalıdır.

**6.1.10.** Qonşu ərazilərin əhalisinə xidmət göstərmək üçün nəzərdə tutulmuş ictimai təyinatlı yerləşgələr qrupu yataqxana və hostellərin tərkibinə daxil edildikdə onlar üçün küçədən müstəqil girişlər təmin olunmalıdır.

**6.1.11.** Yataqxana və hostellərin istismar olunan yastı dam örtükləri aşağıdakı tələblərə uyğun layihələndirilməlidir:

- ümumi sahəsi 300 $m^2$-dən az olan və ya eyni vaxtda 15 nəfərdən az adamın olması üçün nəzərdə tutulmuş binanın istismar olunan yastı damının bir təxliyə çıxışı ilə təmin edilməsinə yol verilir;

- ümumi sahəsi 300 $m^2$-dən çox olan və ya eyni vaxtda 15 nəfərdən çox adamın olması üçün nəzərdə tutulmuş binanın istismar olunan yastı damı əlavə təxliyə çıxışı ilə təmin olunmalıdır;

- istismar olunan damlarda əlavə su-izolyasiya örtükləri məhəccərlərdə, divarlarda və buna bənzər konstruksiyalarda mexaniki zədələnmələrdən qorunmalıdır.

**6.1.12.** Mərtəbə sayı 3-dən artıq olan böyük tutumlu yataqxanalarda 3 ədəd, kiçik tutumlu yataqxanalarda isə 2 ədəd lift nəzərdə tutulmalıdır. Lift holunun eni TNvəQ 2.08.02, əsas parametrləri və ölçüləri isə DÜİST 5746-nın tələblərinə müvafiq qəbul edilir.

Liftin qarşısındakı holun eni və liftin ölçüləri təcili yardım xərəyində daşınan xəstənin liftə yerləşdirilməsinə imkan verməlidir.

**6.1.13.** Təkərli oturacaq təyin edilmiş əlilliyi olan şəxslər üçün liftlər layihələndirilərkən aşağıda göstərilən tələblər nəzərə alınmalıdır:

- əlilliyi olan şəxslərin lift kabinəsinə təhlükəsiz və köməksiz daxil olması (təkərli oturacaq ilə daxil olmaq), lift kabinəsindən çıxması (təkərli oturacaqda), lifti mərtəbə sahəsindən və lift kabinəsindən idarə etməsi təmin olunmalıdır;

- təkərli oturacaq təyin edilmiş əlilliyi olan şəxslər və ya digər köməkçi hərəkət vasitələrindən istifadə edən sərnişinlərin lift kabinəsinə daxil olmasına və kabinədə dönməsinə mane ola biləcək hər hansı qurğunun 800 mm-dən az hündürlükdə quraşdırılmasına yol verilmir;

- şüşəli lift qapıları ilə toqquşmanın qarşısını almaq üçün qapılar nişanlarla işarələnməlidir, eyni zamanda bu işarələrdən binanın qapı və divarlarında da istifadə edilməsinə yol verilir;

- liftin hərəkətində nasazlıq və digər səbəblərdən dayanmalar olduqda, kabinə divarlarının şəffaf elementlərdən olması təlaş riskini azalda bilər;

- işıq şüalarının əks olunmaması, optik illüziyaların və parıltıların yaranmaması üçün lift kabinəsinin divarlarının səthi tutqun olmalıdır;

- kabinə divarlarından birinə güzgü quraşdırılması nəzərdə tutulduqda döşəmədən güzgünün aşağı kənarına qədər məsafənin 300 mm-dən az olmasına, güzgünün səthinin hər hansı oyma, şəkil, yazı ilə işarələnməsinə yol verilmir.

**6.1.14.** Sərnişin liftlərindən çıxışlar, təxliyə yolları və çıxışları üzrə şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun olaraq dəhlizlər və digər yerləşgələrdən qapıları olan arakəsmələrlə ayrılan lift hollarından keçməklə (əsas eniş mərtəbəsi istisna olmaqla) layihələndirilməlidir.

**6.1.15.** Yataqxana və hostel binasının yerləşdiyi ərazi məhdud ölçüdə olduqda sanitariya tələblərinin gözlənilməsi şərtilə ikidən çox olmayaraq tullantı tutumu üçün nəzərdə tutulmuş, bina daxilində qurulmuş tullantı yerlərinin nəzərdə tutulmasına yol verilir.

**6.1.16.** İctimai iaşə müəssisələri yataqxananın yaşayış sahəsinin üzərində, altında, yan divarlarına bitişik və açıq sahələrdə yerləşdikdə yaşayış otaqlarının və ətrafdakı yaşayış binalarının səs-küydən mühafizəsi üzrə tədbirlər nəzərdə tutulmalıdır. İctimai iaşə müəssisələrinin memarlıq-planlaşdırma həlli TNvəQ 2.08.02-nin tələblərinə müvafiq nəzərdə tutulmalıdır.

**6.1.17.** Yataqxana və hostel binalarında səs-küyün və vibrasiyanın normalaşdırılan parametrləri və yolverilən səviyyələri "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri normaları"nın tələblərinə uyğun nəzərə alınmalıdır.

### 6.2. Yataqxanaların həcm-planlaşdırma həllərinə dair tələblər

**6.2.1.** Yataqxana binaları dəhliz (yaşayış otaqları və ya yaşayış bölmələri dəhliz boyunca yerləşir), seksiya (yaşayış otaqları pilləkən qəfəsinin ətrafında yerləşir) və ya digər memarlıq-planlaşdırma quruluşunda layihələndirilir.

**6.2.2.** Yataqxanalarda yaşayış yerləşgələri qrupundan başqa növbətçi otağı və tualetdən ibarət giriş-vestibül qrupu, ailə üçün nəzərdə tutulan yataqxanalarda uşaq arabası üçün yer, yataqxana müdiri otağı, camaşırxana, tibb məntəqəsi, işçilər üçün tualetlər nəzərdə tutulmalıdır.

**6.2.3.** Yataqxananın layihə tapşırığına əsasən aşağıdakı ictimai təyinatlı yerləşgələr nəzərdə tutula bilər:

- təhsil və idman fəaliyyəti;
- mədəni-kütləvi və istirahət;
- qidalanma xidmətinin təşkili;
- məişət xidmətləri;
- inzibati və təsərrüfat məqsədli.

**6.2.4.** Ailələrin yerləşməsi nəzərdə tutulan yataqxanalarda ictimai yerləşgələrin tərkibində bir uşaq üçün 0,08 $m^2$ hesabı ilə sahəsi 15 $m^2$-dən az olmayan uşaq oyun otaqları nəzərdə tutulmalıdır.

Vestibüldə uşaq arabası üçün əlavə yer nəzərdə tutulmalıdır.

**6.2.5.** Mədəniyyət və incəsənət təhsil müəssisələrinin tələbələri üçün yataqxanalarda sahəsi layihə tapşırığı ilə müəyyən olunan əlavə məşğələ otaqları nəzərdə tutulmalıdır.

**6.2.6.** Yataqxanalarda ictimai təyinatlı yerləşgələrin tərkibi və minimal sahələri bu Normaların Əlavə 4-də göstərilənlərə uyğun olaraq nəzərdə tutulması məqsədəuyğundur.

Həkim kabinetinin və prosedur otağının eni TNvəQ 2.08.02-ə əlavə metodik vəsaitin IV bölməsinin tələbləri nəzərə alınmaqla 3,2 m-dən, dərinliyi 4 m-dən az olmamalıdır.

**6.2.7.** Hər izolyasiya palatasında çarpayı sayı ikidən çox olmamalı, unitaz, əlüzyuyan və duş olan ayrıca sanitariya qovşağı olmalıdır. İzolyasiya otağının dəhlizdən şlüzü ayrıca girişi və xaricə tamburlu olan çıxışı olmalıdır.

**6.2.8.** Tələbə şəhərciyi binalarının tərkibindəki yataqxanalarda ümumi yerlərin 15% -i ailəli tələbələr üçün nəzərdə tutulmalıdır.

**6.2.9.** Yataqxananın yaşayış yerləşgələrinin yaşayış otaqları şəklində bloklar və ya yaşayış bölmələrində qruplaşdırılmasına yol verilir.

Yaşayış bölmələrində yaşayış otaqlarının sayı layihə tapşırığına uyğun qəbul edilməlidir.

**6.2.10.** Yataqxanalarda mətbəx hər bir otağın tərkibində layihələndirilmədiyi halda, qruplaşdırılmış hər blokda bu Normaların Əlavə 4-də göstərilənlərə uyğun olaraq tərkibində taxça-mətbəx, ümumi mətbəx, sanitar-gigyena yerləşgələri nəzərdə tutulmalıdır.

Bir neçə blok üçün istirahət və dərs otaqları, eləcə də duş ümumi ola bilər.

**6.2.11**. Yataqxananın yaşayış bölmələrində yardımçı sahələr (sanitariya qovşağı, dəhliz, quraşdırılmış dolab) və layihə tapşırığı üzrə taxça-mətbəx nəzərdə tutulmalıdır. Yaşayış bölmələrinin tutumu 6 nəfərdən çox olmamalıdır.

Yaşayış bölmələrindəki taxça-mətbəx əvəzinə bir neçə yaşayış bölməsi üçün ən çox 12 nəfərlik ümumi mətbəxin təşkil edilməsinə yol verilir.

Yaşayış bölmələrindəki taxça-mətbəx və bir neçə yaşayış bölməsi üçün ümumi mətbəxin sahəsi bu Normaların Əlavə 4-ə uyğun qəbul edilməlidir.

**6.2.12.** Yataqxananın yaşayış sahəsi bir nəfər üçün 10 $m^2$-dən az olmamalıdır. Tələbə və şagirdlər üçün yataqxanaların yaşayış otağında müstəqil məşğələlər üçün yer nəzərdə tutulduqda yaşayış sahəsi bir nəfər üçün 12 $m^2$-dən az olmamalıdır.

Yaşayış otağı 3 nəfərdən, qalma müddəti üç aya qədər olduqda isə 4 nəfərdən çox olmayan şəxslərin yerləşdirilməsi nəzərdə tutulmaqla layihələndirilir.

Binanın yenidənqurulma və uyğunlaşdırılması zamanı mövcud hündürlüyün saxlanılmasına yol verilir.

**6.2.13.** Yaşayış otaqlarından çıxış birbaşa dəhlizə olmalı, otaqlararası keçid olmamalıdır. Yaşayış otaqlarının eni 2,2 m-dən az olmamalıdır.

**6.2.14.** Ailəlilər üçün yataqxanalarda sahəsi 12 $m^2$-dən az olmayan yaşayış otağı, 5 $m^2$-dən az olmayan mətbəx, dəhliz və çanaq, unitaz və əlüzyuyanla təchiz edilmiş sanitariya qovşağı olan bir otaqlı yaşayış bölmələri nəzərdə tutulmalıdır.

**6.2.15.** Yataqxananın yaşayış bölmələri üzrə ümumi sanitariya qovşaqlarında qadınlar və kişilər üçün ayrı-ayrılıqda hər 6 nəfər üçün bir duş, bir əlüzyuyan və bir unitaz nəzərdə tutulmalıdır.

**6.2.16.** 14 yaşdan 18 yaşadək təhsilalanlar üçün nəzərdə tutulmuş yataqxanaların yaşayış otaqları bilavasitə dəhlizlə əlaqələnməlidir.

**6.2.17.** Yataqxanaların mətbəxlərinin və ya taxça-mətbəxlərinin elektrik sobaları ilə təchiz edilməsi və bu Normaların 8-ci bölməsinin tələblərinə uyğun olaraq havalandırma ilə təmin edilməsi şərtilə təbii işıqlandırma olmadan layihələndirilməsinə yol verilir.

**6.2.18.** Çoxmərtəbəli yataqxanaların hər mərtəbəsində köməkçi və sanitariya-məişət yerləşgələri, o cümlədən, tualet, əlüzyuyan (qadınlar və kişilər üçün ayrıca), paltarların qurudulması üçün otaqlar və ümumi mətbəx nəzərdə tutulmalıdır.

**6.2.19.** 1500 və ya daha çox nəfərlik yataqxanalar layihələndirilərkən, yataqxananın əsas binasına isidilən keçid və ya qalereya ilə birləşdirilən təcrid olunmuş blokda və ya ayrıca binada yerləşən ümumi istifadəli yerləşgələrin (tədris və idman fəaliyyətli, istirahət və mədəni-kütləvi təyinatlı) nəzərdə tutulması məqsədəuyğundur.

**6.2.20.** 1500 nəfər və daha çox tutuma malik yataqxanalar üçün izolyasiya otağının əvəzinə bu Normaların Əlavə 5-ə uyğun olaraq tibb məntəqəsi nəzərdə tutulmalıdır.

### 6.3. Hostellərin həcm-planlaşdırma həllərinə dair tələblər

**6.3.1.** Hostellərin yaşayış yerləşgələri qrupu yaşayış nömrələrindən və ümumi istifadəli sanitariya qovşağından ibarətdir.

**6.3.2.** Hostellərin yaşayış otaq-nömrələrinə dair aşağıdakı tələblər nəzərə alınmalıdır:

Otağın sahəsi – bir ədəd bir mərtəbəli və ya iki mərtəbəli çarpayı üçün, çarpayının əsas sahəsi nəzərə alınmaqla 4 $m^2$-dən az olmamalıdır. Yaşayış otaqlarının (nömrələrinin) hündürlüyü (döşəmədən tavana qədər) 2,5 m-dən az olmamalıdır. Dəhliz, hol, antresolların hündürlüyü 2,1 m-dən az olmamalıdır.

Yuxarı çarpayıdan (iki mərtəbəli çarpayı yerləşdirildikdə) tavana qədər məsafə 75 sm-dən az olmamalıdır.

Birgə sanitariya qovşağının sahəsi 1,0 $m^2$-dən az olmamalıdır.

***Qeyd.*** *Ayrı-ayrı sanitariya qovşaqları olduqda, bir sanitariya qovşağının sahəsi qapısının sərbəst açılması şərti ilə 1,5 $m^2$-dən az ola bilər.*

Çarpayıların minimum ölçüləri - bir nəfərlik 80×190 sm, iki nəfərlik 140×190 sm, onlar arasındakı məsafə 75 sm-dən (əgər arakəsmə yoxdursa) az olmamalıdır.

Otaqda (nömrədə), holda və ya dəhlizdə hər bir nəfər üçün çarpayıyanı tumba, dolabça, geyim üçün dolab, bölmələrindən biri kilidlənə bilən dolab olmaqla hər hansı birinin yerləşdirilməsi nəzərdə tutulmalıdır.

**6.3.3.** Hostel otaqlarının ayrıca yaşayış otağı və ya sanitariya qovşağı olan yaşayış otağı kimi layihələndirilməsinə yol verilir.

**6.3.4.** Hostellərdə 6 çarpayı sayına uyğun olaraq minimum 3 $m^2$ ölçüdə ümumi duş/tualet nəzərdə tutulmalıdır.

**6.3.5.** Xidmət yerləşgələri qrupunda aşağıdakılar nəzərdə tutulmalıdır:

- qəbul, qeydiyyat və yerləşdirmə üçün yerləşgə və ya məntəqə;
- təmizlik avadanlığı və yuyucu vasitələrin axlanılması üçün yerləşgə və ya məntəqə;
- yüklərin saxlanılması üçün yerləşgə və ya məntəqə;
- işçi heyət üçün otaq (böyük hostellərdə).

**6.3.6.** Qəbul, qeydiyyat və yerləşdirmə üçün yerləşgə və ya zonaların sahəsi, kollektiv istifadə üçün telefonların və yaşayanların sənədlərinin saxlanılacağı seyfin quraşdırılması üçün yerlər nəzərə alınmaqla 6 $m^2$-dən az olmayaraq layihələndirilməlidir.

**6.3.7.** Baqajın saxlanılması üçün yerləşgənin və ya zonanın sahəsi 2,0 $m^2$-dən az olmamaqla hostelin tutumundan asılı olaraq nəzərdə tutulmalıdır.

**6.3.8.** Növbətçi heyətin, mərtəbə administratorunun otağının, paltarların təmizlənmə və ütülənməsi, ayaqqabıların təmizlənməsi üçün otaqların, təmiz və çirkli camaşırların saxlanılması üçün yerlərin mövcudluğu və sahəsi layihə tapşırığına əsasən müəyyən edilir.

**6.3.9.** Hosteldə və ya ondan piyada məsafəsində iaşə müəssisələri (kafe, qəlyanaltı, bufet və s.) olduqda, həmçinin iaşə xidmətinin əlverişli iqlim şəraitində açıq havada təşkil edilməsi mümkün olduqda hosteldə ictimai yerləşgələrin olmamasına yol verilir.

**6.3.10.** Hollar, onların yerləşməsi və təchizatı TNvəQ 2.08.02-nin tələblərinə uyğun olaraq layihə tapşırığına əsasən müəyyən edilir.

**6.3.11.** Qida qəbulu və hazırlanması üçün otaq və ya yer 1 nəfərə 1,2 $m^2$ sahə nəzərə alınmaqla, lakin 5 $m^2$-dən az olmayaraq layihələndirilməlidir.

**6.3.12.** Hostellərdə "bufet" və "kafe" zonasının olmamasına yol verilir. Hər bir hosteldə ictimai-iaşə zonasının yaşayış zonasından ayrı nəzərdə tutulması (mətbəxdən kənar yerdə) layihə tapşırığına əsasən müəyyən edilməlidir.

**6.3.13.** Hostellərdə yerləşən ictimai iaşə müəssisələri layihələndirilərkən “Qida məhsullarının təhlükəsizliyinə və qida dəyərliliyinə gigiyenik tələblər” nəzərə alınmalıdır.

## 6.4. Konstruksiyalara dair tələblər

**6.4.1.** Yataqxana və hostel binalarının yükdaşıyan konstruksiyalarının möhkəmlik və dayanıqlılığı TNvəQ 2.08.02, DTN 2.02-01 və DÜİST 27751-in tələblərinə uyğun təmin edilir.

**6.4.2.** Yataqxana və hostel binalarının konstruksiyalarının hesablanması üçün yüklərin normativ göstəriciləri, layihə tapşırığına uyğun olaraq quraşdırılmış texnoloji avadanlıqların yükü nəzərə alınmaqla AzDTN 2.1-1-in tələblərinə uyğun qəbul edilməlidir.

**6.4.3.** Xidmət müddəti, binanın layihə xidmət müddətindən az olan konstruksiya və avadanlıqlar layihədə müəyyən edilmiş müvafiq təmirlərarası dövrlərdə dəyişdirilə bilən olmalıdır.

**6.4.4.** Konstruksiya və detallar rütubətin, aşağı temperaturun, aqressiv mühitin, bioloji təsirlərin və digər mənfi amillərin mümkün təsirinə davamlı və ya bu təsirlərdən AzDTN 2.5-1-in tələblərinə uyğun olaraq mühafizə olunan materiallardan hazırlanmalıdır.

**6.4.5.** İctimai iaşə müəssisələrinin mətbəxlərində, sanitariya qovşaqlarında və rütubətli iş şəraitinə malik digər yerləşgələrdə döşəmələr, divarlar və arakəsmələr rütubətə davamlı materiallardan hazırlanmalıdır; divarlar və arakəsmələr 2 m-dən az olmayan hündürlükdə keramik plitələrlə döşənməlidir.

## 7. Yanğın təhlükəsizliyinin təmin edilməsi

**7.1.** Yataqxana və hostellərdə yanğın təhlükəsizliyi "Fərdi qarajlar, mehmanxana, yataqxana, yaşayış evləri və inzibati binalar üçün yanğın təhlükəsizliyi Qaydaları"nın tələblərinə uyğun təmin edilməlidir.

**7.2.** İnşaat konstruksiyalarının yanğına davamlılığına, binaların yanğın təhlükəsizliyinə, yanğının yayılmasının qarşısının alınmasına, təxliyənin təmin edilməsinə, binaların mühəndis sistemləri və avadanlıqlarına qoyulan yanğın əleyhinə, həmçinin yanğının söndürülməsi və xilasetmə işlərinə tələblər, hostellər mehmanxanalara bərabər tutulmaqla "Fərdi qarajlar, mehmanxana, yataqxana, yaşayış evləri və inzibati binalar üçün yanğın təhlükəsizliyi Qaydaları", AzDTN 2.7-2, DTN 2.02-01, TNvəQ 2.04.09-a müvafiq qəbul edilməlidir.

**7.3.** Yanğın zamanı xəbərdarlıq və təxliyəyə nəzarət sistemi Azərbaycan Respublikasının şəhərsalma və tikintiyə dair normativ sənədlərinə müvafiq nəzərdə tutulmalıdır. Siqnal nişanları DÜİST 12.4.026-ya uyğun olmalıdır. Siqnal nişanlarına tələblər DÜİST 12.4.026-da verilmişdir.

**7.4.** Ərazidə və yerləşgədə məlumat nişanlarının quraşdırılmasına zərurət olduqda, onlar DÜİST 12.4.026-ya uyğun aparılmalıdır.

## 8. Mühəndis-texniki avadanlıqlar

**8.1.** Yataqxana və hostellərin binasında təsərrüfat-içməli, yanğın əleyhinə və isti su təchizatı, kanalizasiya və su kənarlaşdırıcılar AzDTN 2.11-1 və AzDTN 2.11-3*-ün tələblərinə müvafiq layihələndirilməlidir.

İsitmə, ventilyasiya, tüstüdən mühafizə, havanın kondisiyalaşdırılması AzDTN 2.12-2 və DÜİST 30494-ün tələblərinə uyğun layihələndirilməlidir.

**8.2.** Digər təyinatlı binaların daxilində, binaya bitişik və ya qismən daxilində yerləşən yataqxanaların, eləcə də böyük və kiçik hostellərin mühəndis avadanlıqları bu binaların mühəndis avadanlıqlarından müstəqil layihələndirilməlidir.

**8.3.** Binanın giriş meydançası, sərt döşəmə örtüklərinin nəm halda təmizlənməsi və ya nəmli proseslər aparılan yerləşgələr, sanitariya qovşaqları və s. suyu döşəmədən kənarlaşdıran qurğularla təchiz olunmalıdır. Zədələnmələrdən qorunmaq məqsədilə bu yerləşgələrin döşəmələrində sürüşkənlik AzDTN 2.21-1-in tələblərinə uyğun olmalıdır.

**8.4.** Yataqxana və hostellərdə kanalizasiya dikborularının açıq üsulla çəkilməsinə yol verilmir.

**8.5.** Novalça qıflarının yaşayış yerləşgələrinin üzərində yerləşdirilməsinə yol verilmir. Yaşayış blokları zonasında novalça dikborularını yataqxanaların yaşayış blokları və bölmələrinin və hostel nömrələrinin təsərrüfat otaqlarına bitişik taxçalardan və şaxtalardan keçirməyə yol verilir.

**8.6.** Yataqxana və hostellərdə təbii üsullu ventilyasiya sistemlərinin tətbiq olunmasına yol verilir.

Böyük hostellərdə ventilyasiya sistemləri olmadıqda bütövlükdə binada və ya onun ayrı-ayrı hissələrində aşağıdakılar nəzərdə tutulmalıdır:

- bütün əsas yerləşgələrdə mexaniki üsulla vurucu-sorucu ventilyasiya;

- vestibüllərdə, hollarda, 50-dən çox yerlik qidalanma müəssisələrinin yemək zallarında mexaniki axınlı ventilyasiya.

**8.7.** Yataqxana və hostellərin binasında yerləşən ictimai iaşə müəssisələrinin, idman-sağlamlıq məşqləri üçün zalların, akkumulyator otaqlarının ventilyasiya sistemləri digər yerləşgələrin ventilyasiya sistemlərindən ayrı nəzərdə tutulmalıdır.

**8.8.** Yaşayış yerləşgələrinin ventilyasiya sistemlərində temperatur parametrlərinin yerli tənzimlənməsi və ya proqramlaşdırılması nəzərdə tutulmalıdır.

**8.9.** Yataqxana və hostel binalarının elektrik təchizatı və elektrik avadanlığı "Elektrik qurğularının quraşdırılması Qaydaları"nın tələblərinə uyğun layihələndirilməlidir.

**8.10.** Etibarlılıq təminatı dərəcəsinə görə enerjiqəbuledicilərinin kateqoriyaları "Elektrik qurğularının quraşdırılması Qaydaları"na uyğun qəbul edilməlidir.

**8.11.** Çilçıraqlarının sayı 300 və daha çox olan yataqxana və ya hostellərdə çilçıraqların təmizlənməsi və yuyulması və istifadə edilmiş ağ, sarı işıqlı və s. lüminisent və ya led lampaların konteynerlərdə müvəqqəti saxlanması üçün hər 300 lampaya 6 $m^2$ sahə hesablamaqla texniki yerləşgələr nəzərdə tutulmalıdır.

**8.12.** "Elektrik qurğularının quraşdırılma Qaydaları"nın və DTN 2.04-05-in tələblərinə müvafiq olaraq yataqxana və ya hostellərin yerləşgələrinin elektrik işıqlandırılması aşağıdakı qruplar üzrə təmin edilməlidir:

- yaşayış, ictimai, inzibati yerləşgələr və təxliyə yolları;
- texniki yerləşgələr;
- xarici işıqlandırma.

**8.13.** Yataqxana və hostel binalarının mühəndis-texniki təminatının bir hissəsi olan elektrik rabitə sistemi (məlumatlandırma, dispetçerləşdirmə və fövqəladə hallarda xəbərdarlıq) layihələndirilərkən aşağıdakılar nəzərə alınmalıdır:

- mühəndis avadanlıqlarının idarə olunması və dispetçerləşdirilməsi üzrə avtomatlaşdırılmış sistem yaşayış mühitinin komfortunu və binaların və liftlərin istismar təhlükəsizliyini təmin edən mühəndis sistemlərinin avadanlıqları üzərində mərkəzləşdirilmiş monitorinqin, dispetçerləşdirilmənin və idarəetmənin həyata keçirilməsini təmin etməlidir. Mühəndis sistemlərinin avadanlıqlarına uzaqdan idarəetmənin tətbiqi yalnız insanların həyat və sağlamlığının, əmlakın və ətraf mühitin təhlükəsizliyinin qənaətbəxş səviyyədə təmin edildiyi hallarda mümkündür;

- mühəndis avadanlıqlarının idarə olunması və dispetçerləşdirilməsi üzrə avtomatlaşdırılmış sistem özünüdiaqnostika ilə təmin olunmalıdır;

- mühəndis avadanlıqlarının idarə olunması və dispetçerləşdirilməsi üzrə avtomatlaşdırılmış sistemin magistral şəbəkələri digər sistemlərin magistralları ilə inteqrasiya edilməlidir (o cümlədən, enerji sərfiyyatının ölçülməsi, əlilliyi olan şəxslər üçün qaldırıcı platformaların dispetçerləşdirilməsi və video monitorinqi). Texniki cəhətdən əsaslandırılmış hallarda sistemlərin hər biri üçün ayrı-ayrılıqda magistral şəbəkələrin layihələndirilməsinə yol verilir;

- məlumatın avtomatlaşdırılmış idarəetmə sistemindən daha yüksək iyerarxik səviyyəyə, o cümlədən mərkəzi şəhər və ixtisaslaşmış dispetçer xidmətlərinə ötürülməsi mümkün olmalıdır.

**8.14.** Yataqxana və hostellərin ərazilərində və binalarında girişlərin, hərəkət istiqamətlərinin, yanğın hidrantlarının, təxliyə yollarının, fasaddakı ünvanların DÜİST 12.4.026 və DTN 2.04-05-in tələblərinə uyğun olaraq işıqlı və ya işıqlandırılmış nişan sistemi ilə təmini nəzərdə tutulmalıdır.

**8.15.** Qəbul xidməti, mərkəzi dispetçer məntəqəsi, rabitə qovşağı, elektrik lövhələri, yanğınsöndürmə xidmətinin mühafizə postları üçün işçi işığın 5%-i həcmində qəza işıqlandırması nəzərdə tutulmalıdır. Təxliyə işıqlandırması DTN 2.04-05-in tələblərinə müvafiq təmin edilməlidir.

**8.16.** Mərkəzi dispetçer məntəqələrinin yaradılması ilə mühəndis avadanlığı sistemlərinin dispetçerləşdirilməsinin nəzərdə tutulması 300 və daha çox yerlik yataqxana və hostellər üçün məcburi, 300-dən az yerlik yataqxana və hostellər üçün isə tövsiyə olunandır.

**8.17.** Mühəndis avadanlıqlarının dispetçer sistemi ventilyasiya və kondisiyalaşdırma, istilik və su təchizatı (o cümlədən, yanğın, isti və təsərrüfat-içməli su), kanalizasiya, soyuqluq təchizatı, yanğından mühafizə, elektrik işıqlandırması, lift avadanlıqları və digər sistemlərin davamlı nəzarətini və uzaqdan idarə olunmasını təmin etməlidir.

**8.18.** İsti və soyuq su təchizatı (o cümlədən, yanğın əleyhinə), kanalizasiya, istilik, ventilyasiya, soyuqluq təchizatı, yanğından mühafizə, lift təsərrüfatı sistemlərinə nəzarət və tənzimlənməni təmin etmək məqsədilə nəzarət-ölçü cihazları və avtomatlaşdırma nəzərdə tutulmalıdır. Aparılan tənzimləmə işlərini və qəza vəziyyətlərini yaddaşda qeyd edən, eləcə də bu proseslərin xüsusiyyətlərini və protokollarını çap etmək imkanı olan proqramlaşdırıla bilən rəqəmsal sistemlərin və cihazların tətbiqi də tövsiyə olunur.

**8.19.** Yataqxana və hostel binalarında nəzərdə tutulmuş avtomatlaşdırılmış komplekslər, rabitə və məlumatlandırma sistemləri bu Normaların Əlavə 7-ə uyğun qəbul edilməlidir.

## 9. Daxili mühitə dair tələblər

**9.1.** Sanitariya-gigiyena tələbləri "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanunu, AzDTN 2.7-2, TNvəQ 2.08.02 və "Qida məhsullarının təhlükəsizliyinə və qida dəyərliliyinə gigiyenik tələblər"ə müvafiq olaraq nəzərə alınmalıdır.

**9.2.** Daxili mühitin mikroiqlim parametrlərinə tələblər yataqxana və hostel yerləşgələri üçün DÜİST 30494-ə uyğun qəbul edilməlidir.

## 10. Enerji effektivliyi

**10.1.** Yataqxana və hostel binalarının memarlıq, funksional-texnoloji, konstruktiv və mühəndis-texniki həlləri, enerji ehtiyatlarından səmərəli istifadə və yerləşgələrin daxili mikroiqliminin təmin edilməsi üzrə tələblər nəzərə alınmaqla AzDTN 2.12-4-ə uyğun olaraq qəbul edilməlidir.

**10.2.** İstilik mühafizəsinin layihələndirilməsinə dair tələblər DQT 2.04-101-ə müvafiq nəzərdə tutulmalıdır.

**10.3.** Yataqxana və hostellərin enerji effektivliyi sinfi AzDTN 2.12-4-ün tələblərinə uyğun olmalıdır.

**10.4.** Yataqxana və hostellərin D və E enerji effektivliyi sinfi üzrə layihələndirilməsinə yol verilmir. Yeni tikilən və yenidənqurulan binalar üçün A, B, C sinifləri layihə sənədlərinin işlənib hazırlanması mərhələsində müəyyən edilir. Daha sonra istismar zamanı binanın enerjiyə qənaət sinfi enerji müayinəsi yolu ilə dəqiqləşdirilməlidir. C sinfindən aşağı göstərici olduqda onun yüksəldilməsi üzrə tədbirlər nəzərdə tutulmalıdır.

**10.5.** Yataqxana və hostel binalarının A və B enerji effektivliyi siniflərinə aid edilməsi layihədə aşağıdakı zəruri enerjiyə qənaət tədbirlərinin nəzərə alınması şərti ilə yerinə yetirilir:

- isti su təchizatı sistemlərində suyun dövr etdirilməsi üçün enerji xərclərini azaldan və enerji resurslarının, isti və soyuq suyun istehlakını idarə edən və uçotunu aparan avtomatlaşdırılmış sistemlərlə təchiz edilmiş fərdi istilik məntəqələrinin qurulması;

- binadakı ümumi yerləşgələrdə hərəkət sensorları ilə təchiz olunmuş enerjiyə qənaət edən işıqlandırma sistemlərinin tətbiqi;

- lift qurğuları, nasos və ventilyasiya avadanlığı mühərriklərinin reaktiv gücünü kompensasiya edən cihazların tətbiqi.

Dəhlizlərdə və pilləkən qəfəslərində işıqlandırmaya nəzarət etmək üçün hərəkət sensorlarından istifadə etdikdə, təxliyə işıqlandırma normalarından az olmayan işıqlandırmanı təmin etmək üçün günün qaranlıq saatlarında qəza işıqlandırma lampaları və (və ya) işçi lampaların bir hissəsinin işıqları hər zaman yanmalıdır.

**10.6.** Yataqxana və ya hostel binalarının istilik məntəqələrindən idarə olunan istilik istehlakı sistemləri istilik gücünün avtomatik tənzimlənməsi üçün cihazlarla layihələndirilməlidir. Vurucu ventilyasiya sistemlərinin hər bir hava qızdırıcısı üçün istilik gücünün fərdi tənzimlənməsi nəzərdə tutulmalıdır.

**10.7.** Hər qızdırıcı cihaza temperaturu avtomatik tənzimləyən fərdi tənzimləyici cihaz quraşdırılmalıdır.

Növbətçi istilik sistemi (gözləmə rejimində olan) təmin edilən yerləşgələrdə tənzimləyicilər nəzərdə tutulmur, istilik sisteminin ayrıca şaxəsinə qoşulan, xarici temperatur vericisi (sensoru) olan qrup tənzimləyicilər ilə təchiz edilən üç və ya daha çox istilik cihazı quraşdırılan yerləşgələrdə, eləcə də pilləkən qəfəslərində isə əlavə istilik verilişi “fancoil” ilə həyata keçirilir.

**10.8.** İctimai və təsərrüfat təyinatlı yerləşgələr üçün su qızdırıcıları, qeyri-iş saatlarında istilik axınını avtomatik bağlayan cihazlarla layihələndirilməlidir.

**Əlavə 1**

**Yataqxana və hostellərin yerləşgələrinin sahəsinin, tikinti həcminin, mərtəbə sayının, hündürlüyünün və yeraltı hissələrinin dərinliyinin hesablanması qaydaları**

Cədvəl 1.1

| Göstəricilər | Hesablama üsulu |
|---|---|
| Hostelin və ya yataqxananın yaşayış, otaq və bölmələrinin sahəsi | Hostelin və ya yataqxananın yaşayış otağının və yaşayış bölmələrinin sahəsi bu binaların bütün hissələri, eyvanlar, lociyalar, verandalar və teraslar istisna olmaqla, vətəndaşların məişət və yaşayış yerləri ilə əlaqəli digər ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş köməkçi yerləşgələrin sahəsinin cəmindən ibarətdir. |
| Binanın mərtəbəliyi,mərtəbənin sahəsi, ümumi sahəsi, faydalı sahəsi, hesabi sahəsi, tikinti sahəsi və tikinti həcmi | "Tikinti obyektinin sahəsinin və həcminin hesablanması qaydaları"na uyğun olaraq qəbul edilir. |
| Binanın hündürlüyü və yeraltı hissələrinin dərinliyi | Binanın hündürlüyü torpağın layihə səviyyəsindən binanın ən hündür konstruktiv elementinə qədər olan şaquli məsafə qəbul edilir.<br><br>Binanın yeraltı hissəsinin dərinliyi torpağın layihə səviyyəsindən yeraltı hissəsinin döşəməsinədək olan şaquli məsafə qəbul edilir. |
| ***Qeyd.*** *Bina intensiv maillikli ərazidə yerləşdikdə, yerləşgələrinin döşəmə səviyyəsi yerin ən aşağı planlaşdırma səviyyəsindən yuxarıda olan mərtəbə birinci yerüstü mərtəbə hesab edilir.* | |

**Əlavə 2**

**Yataqxanalarda bir sakinə düşən minimal torpaq sahəsi**

Cədvəl 2.1

| Yataqxanaların tutumu, nəfər | 50 | 400 | 1000 |
|---|---|---|---|
| Bir sakinə düşən torpaq sahəsi, $m^2$ | 45 | 25 | 17 |
| ***Qeyd.*** *Aralıq tutuma malik yataqxanalar üçün torpaq sahəsi normaları interpolyasiya, daha kiçik və daha böyük tutuma malik yataqxanalar üçün isə ekstrapolyasiya üsulu ilə müəyyən edilir.* | | | |

**Əlavə 3**

**Yataqxana və hostellərdə inzibati yerləşgələrin tərkibi və minimal sahələri**

Cədvəl 3.1

| Yerləşgələrin adları | Yataqxana və hostelin tutumuna (nəfər) görə yerləşgələrinin sahəsi, $m^2$ | | Qeyd |
|---|---|---|---|
| | 50 nəfərə qədər | 50 nəfərdən çox | |
| Direktorun kabineti | 12 | 12 | - |
| Qəbul otağı | - | 8 | - |
| Direktor müavinin kabineti | 12 | 12 | vəzifənin mövcudluğu halında |
| Baş mühəndis (texnik) | - | 8 | - |
| Təsərrüfat müdiri | 10 | 12 | - |
| Komendant | - | 8 | vəzifənin mövcudluğu halında |
| İnsan resursları | - | 12 | vəzifənin mövcudluğu halında |
| Arxiv | 8 | 12 | - |
| Mühasibatlıq, o cümlədən: | 16 | 22 | - |
| - baş mühasibin otağı; | - | 12 | vəzifənin mövcudluğu halında |
| - iş otaqları; | 12 | 16 | - |
| - kassa. | 4 | 6 | - |
| Planlaşdırma-istehsalat şöbəsi | - | 12 | - |
| ***Qeyd**. Bu yerləşgələrin layihə tapşırığı əsasında nəzərdə tutulmasına yol verilir.* | | | |

**Əlavə 4**

**Yataqxanalarda ictimai təyinatlı yerləşgələrin tərkibi və minimal sahələri**

Cədvəl 4.1

| Yerləşgələrin adları | 1 nəfərə düşən sahə norması, $m^2$, yataqxanaların tutumuna görə otaqların avadanlıqları, nəfər | | |
|---|---|---|---|
| | 50 | 400 | 1000 |
| Vestibül | 0,15- lakin 15-dən az olmayaraq | | |
| İnzibati və iş otaqları | 0,15- lakin 12-dən az olmayaraq | | |
| Mədəni-kütləvi tədbirlər, istirahət, təhsil və idman məşqləri üçün yerləşgələr | 1,45 | 0,9 | 0,8 |
| Yaşayış bloklarının mətbəxləri | 0,8- lakin 12-dən az olmayaraq | | |
| Yaşayış bölmələrində taxça-mətbəx; Bir neçə yaşayış bölməsi üçün ümumi mətbəxlər. | 1,2 - lakin 6-dan az olmayaraq | | |
| İctimai-iaşə yerləşgələri və ya otaqları[1)] | 200-nəfərdən 600 nəfərə qədər yataqxanalarda - bufet | | |
| | hər 100 nəfərə 6 yer hesablamaqla, 600-1000 nəfərlik yataqxanalarda - kafe | | |

| | | | |
|---|---|---|---|
| İdman və təsərrüfat avadanlıqları üçün anbarlar, şəxsi əşyaların, yataq örtüklərinin saxlama kameraları | 0,5 | 0,25 | 0,18 |
| Paltarların yuyulması, qurudulması və ütülənməsi üçün otaqlar | 0,35 | 0,15 | 0,10 |
| Sanitariya-gigiyena yerləşgələri | hər 4-6 nəfər üçün 1 duş, 1 əlüzyuyan və 1 unitaz. Qadınların şəxsi gigiyenası üçün kabinə (50 nəfərə 1 kabinə olmaqla), *yuxarı qalxan duş (oturacağında oyuq olan, əldə daşınabilən, altında suyu səpələyən tor ucluqlu müalicə prosedurları üçün stul),* duş, unitaz, duş və əlüzyuyan. | | |
| Tərbiyəçi otağı (hər mərtəbədə) | 6 | 6 | 6 |
| Həkim (və ya tibb bacısı) otağı | 12 | | |
| Prosedur otağı | 18 | | |
| İzolyasiya otağı [2] | 200 nəfərlik və daha çox tutumu olan yataqxanalarda, hər 200 nəfərə 1 yer (7m$^2$) nəzərdə tutulur. | | |

[1] 200 nəfərə qədər tutumu olan yataqxanalarda ictimai-iaşə yerləşgələri və ya otaqları layihə tapşırığına uyğun nəzərdə tutulur.
[2] 200 nəfərə qədər tutumu olan yataqxanalarda 14-18 yaşda təhsil alanlar üçün izolyasiya otağına 1 yer nəzərdə tutulur.
**Qeyd.** *Aralıq tutumlu yataqxanalar üçün otaqların sahə normaları interpolyasiya, daha kiçik və daha böyük tutuma malik yataqxanalar üçün isə ekstrapolyasiya üsulu ilə müəyyən edilir.*

**Əlavə 5**

## 1500 nəfər və daha çox tutuma malik yataqxanalar üçün tibb məntəqəsi yerləşgələrinin tərkibi və minimal sahələri

Cədvəl 5.1

| Yerləşgələrin adları | Yataqxananın tutumuna görə (nəfər) yerləşgələrin sahəsi (m$^2$) | | |
|---|---|---|---|
| | 1500 | 2000 | 5000 və daha çox |
| Vestibül | 18 | 27 | 36 |
| Həkim otağı | 18 | hər biri 18 m$^2$ olan 2 otaq | hər biri 18 m$^2$ olan 2 otaq |
| Prosedur otağı | 18 | 18 | 18 |
| Fizioterapiya otağı | 27 | 36 | 54 |
| Diş həkimi kabineti | 18 | 18 | 18 |
| Tibbi heyətin otağı | 9 | 9 | 9 |
| İzolyasiya otağı[1] | 3 çarpayı | 5 çarpayı | 7 çarpayı |

[1] İzolyasiya otağının sahəsi hər bir çarpayı üçün 7 m$^2$ hesabı ilə müəyyən edilir.
**Qeyd.** *1500 və daha çox nəfərlik yataqxanalarda, tibbi xidmətin emalatxanlar üzrə təşkil edildiyi müəssisələrin işçiləri üçün tibb məntəqəsinin yaradılması zəruri deyil.*

**Əlavə 6**

**Yataqxana və hostellərdə məişət-xidməti yerləşgələrinin tərkibi və minimal sahələri**

Cədvəl 6.1

| Yerləşgələrin adları | Yataqxana və hostellərin tutumuna görə (nəfər) yerləşgələrinin sahəsi, m² | | | | | |
|---|---|---|---|---|---|---|
| | 50-yə qədər | 50-dən 100-ə qədər | 100-dən 300-ə qədər | 300-dən 500-ə qədər | 500-dən 800-ə qədər | 800-dən çox |
| Mərkəzi dispetçer məntəqəsi, o cümlədən: | | | | | | |
| - maşın salonu; | - | - | - | Hesablama üzrə | | |
| - əməliyyat salonu; | - | - | 12 | 18 | 24 | 30 |
| - yanğın məntəqəsi; | 15 m²-dən az olmayaraq hesablama üzrə | | | | | |
| - təmir emalatxanası; | - | - | - | 12 | 12 | 16 |
| - təmir növbəsinin növbətçi yerləşgəsi; | 6 | 8 | 10 | 14 | 18 | 22 |
| - dispetçer liftləri. | - | - | - | - | - | 8 |
| Rabitə qovşağı, o cümlədən: | 12 | 14 | 72 | 80 | 110 | 134 |
| - təmir emalatxanası; | 6 | 6 | 12 | 16 | 20 | 24 |
| - texnika anbarı; | - | - | 6 | 6 | 12 | 12 |
| - heyət otağı. | - | - | 8 | 8 | 12 | 16 |
| Camaşırların yığılma və saxlanma mərkəzi[1)], o cümlədən: | 28 | 40 | 52 | 74 | 90 | 118 |
| - təmiz camaşırların ayrılması; | 12 | 16 | 20 | 24 | 30 | 42 |
| - çirkli camaşırların ayrılması; | 6 | 8 | 12 | 16 | 20 | 30 |
| - çirkli camaşırların çeşidlənmə otağı; | 6 | 8 | 8 | 12 | 12 | 12 |
| - təmir emalatxanası[1)]; | 4 | 4 | 6 | 6 | 8 | 12 |
| - camaşır təsərrüfatı müdirinin kabineti[1)]; | - | - | - | 8 | 10 | 12 |
| - yükləmə sahəsi[2)]. | - | 4 | 6 | 8 | 10 | 10 |
| Dezinfeksiya xidməti | - | - | 6 | 6 | 6 | 8 |
| Ərazi təmizləmə xidməti, o cümlədən: | | | | | | |
| - məişət yerləşgələri; | 6 | 6 | 8 | 12 | 12 | 16 |
| - təmizlik ləvazimatları anbarı; | - | 4 | 4 | 6 | 8 | 10 |
| - istehlak anbarı; | - | 4 | 6 | 8 | 10 | 12 |
| - bağ avadanlıqları və təmizlik texnikası anbarı[3)]. | Hesablama üzrə | | | | | |
| Emalatxana[1)], o cümlədən: | 40 | 60 | 106 | 140 | 156 | 212 |
| - elektrotexnika; | 8 | 8 | 12 | 16 | 24 | 30 |
| - santexnika; | - | 8 | 12 | 16 | 24 | 30 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| - çilingər; | 8 | 8 | 12 | 16 | 30 | 42 |
| - nəzarət-ölçü cihazları və avtomatlaşdırma; | - | 8 | 12 | 16 | 30 | 42 |
| - ticarət və texnoloji-avadanlıq; | - | - | 12 | 24 | 36 | 48 |
| - dülgər; | 16 | 16 | 30 | 36 | 42 | 48 |
| - rəngsaz; | 8 | 12 | 16 | 16 | 24 | 30 |
| - rəssam otağı. | - | - | - | 10 | 14 | 18 |
| Anbar yerləşgələri[1], o cümlədən: | | | | | | |
| - ehtiyat camaşır anbarı; | 6 | 8 | 12 | 16 | 20 | 30 |
| - pərdə örtük anbarı; | - | 6 | 8 | 10 | 12 | 16 |
| - maddi-texniki anbarlar; | 20 | 30 | 40 | 50 | 70 | 90 |
| - istehlak anbarı; | 12 | 16 | 20 | 24 | 30 | 40 |
| - mebel anbarı; | 20 | 30 | 50 | 70 | 90 | 110 |
| - texniki xidmətlər üçün anbarlar; | Hesablama üzrə | | | | | |
| - lak-boya materialları anbarı; | 50 kq-a qədər yükün saxlanması üçün hesablanır | | | | | |
| - taxta materialları anbarı. | 16 | 20 | 24 | 30 | 40 | 60 |
| İstehsalat heyəti üçün məişət yerləşgələri | Hesablama üzrə | | | | | |
| Camaşırxana | - | - | Hesablama üzrə | | | |
| Təmizlik ləvazimatları və yuyucu vasitələrin saxlanması üçün yer və ya yerləşgə | İctimai təyinatlı xidmət sahələrinin hər 100 $m^2$-nə 2 $m^2$ hesablamaqla hər mərtəbədə 1-2 ədəd | | | | | |
| Təsərrüfat anbarı | İctimai təyinatlı xidmət sahələrinin hər 100 $m^2$-nə 3 $m^2$ hesablamaqla hər mərtəbədə 1-2 ədəd | | | | | |

[1] Layihə tapşırığı üzrə.
[2] Yataq örtüklərinin yuyulması olmadıqda.
[3] Yaşıllaşdırma və yol-park zonası olduqda.

**Əlavə 7**

**Yataqxana və hostel binalarında nəzərdə tutulmuş avtomatlaşdırılmış komplekslər, rabitə və məlumatlandırma sistemləri**

Cədvəl 7.1

| Kompleks, sistem | Yataqxana | Hostel |
|---|---|---|
| Dispetçer (texnoloji) telefon rabitə sistemi | - | + |
| Otaq-nömrədən telefon rabitəsi: daxili (yaşayış yerindən çıxmadan) və ya otaqların 100%-ində xidmət personalını çağırmaq üçün zəng düyməsi | - | - |
| Otaq-nömrədən telefon rabitəsi: (yaşayış yerindən çıxmadan) otaqların 100%-ində daxili | - | + |
| İctimai yerləşgələrdə kollektiv istifadə üçün şəhərdaxili və şəhərlərarası telefon | + | + |
| Televiziya proqramlarının qəbul sistemi | + | + |
| Binaya nəzarət və idarəetmə sistemi | - | + |
| Vahid zaman, elektrik saat sistemi | - | + |

**Əlavə 8**

**Uşaq oyun meydançalarında avadanlıqlara tələblər**

Uşaq oyun meydançalarında avadanlıqlar:

- uşaqların yaş qrupuna uyğun nəzərdə tutulmalıdır;
- oyunda ehtimal olunan təhlükə riskini uşaq qabaqcadan aydın müəyyən edə bilməlidir;
- avadanlığın daxilində uşaqlara kömək göstərilməsi üçün böyüklərin müdaxiləsi mümkün olmalıdır;
- onların səthlərində suyun toplanmasına yol verilməməlidir və suyun sərbəst axması və quruması təmin edilməlidir.

Avadanlığın konstruksiyaları möhkəmliyi, dayanıqlığı, sərtliyi və məkan sabitliyini təmin etməlidir.

Avadanlığın metal elementləri korroziyadan mühafizə olunmalı, yaxud korroziyaya davamlı materiallardan hazırlanmalıdır.

Zamanla kövrəkləşən polimer və kompozit materiallardan hazırlanmış avadanlıqlar, istehsalçı tərəfindən müəyyən edilmiş müddət bitdikdən sonra dəyişdirilməlidir.

Metal bərkidiciləri seçərkən, metalın sürətlə korroziyaya uğramasının qarşısını almaq üçün oduncağın və tətbiq edilən antiseptikin növü nəzərə alınmalıdır.

Avadanlığın çıxıntılı elementlərinin uc və ya kənarlarının iti olmasına yol verilmir.

Uşağa xəsarət yetirə biləcək nahamar səthlərin olmasına yol verilmir.

Boltlu birləşmələrin çıxıntılı ucları mühafizə olunmalıdır (boltlu birləşmələrin mühafizəsinin nümunələri şəkil 1-də göstərilmişdir).




***Şəkil 1. Boltlu birləşmələrin mühafizəsi***

Qaynaq tikişləri hamar olmalıdır.

Avadanlığın uşaqların əli çata biləcəyi hər hansı künc və kənarları yuvarlaqlaşdırılmalıdır. Minimum əyrilik radiusu 3 mm olmalıdır.

“V” formalı aralıqların və yarıqların divarları arasındakı bucaq 60°-dən az olmamalıdır.

Dövri texniki qulluğa və ya dəyişdirilməsinə ehtiyacı olan avadanlıqlar icazəsiz müdaxilədən qorunmalıdır.

Girişdən istənilən istiqamətdə, daxili ölçüləri 2000 mm-dən çox olan tunellər, oyun evləri və bu kimi qapalı avadanlıqların bir-birindən asılı olmayan və avadanlığın müxtəlif tərəflərində yerləşən ən azı iki açıq girişi olmalıdır. Giriş konstruksiyaları onların bloklanması ehtimalını istisna etməli və zərurət yarandıqda böyüklərin uşaqlara heç bir əlavə vasitələrdən istifadə etmədən (məsələn, bu avadanlığın bir hissəsi olmayan nərdivan) yardım göstərmək imkanı təmin etməlidir. Açıq girişlərin ölçüləri ən azı 500x500 mm olmalıdır.

Fövqəladə vəziyyətlərdə girişlər uşaqların avadanlıqdan təhlükəsiz çıxışını təmin etməlidir.

Avadanlığın hərəkətli, eləcə də hərəkətli və sabit elementləri:

- sıxıcı və ya kəsici səthlər yaratmamalıdır;

- uşağın bədəninin, bədən üzvlərinin və ya paltarının ilişmə ehtimalına şərait yaratmamalıdır.

Oyun meydançasının zərbəuducu səthi ilə avadanlığın hərəkət edən elementləri arasında məsafə ən azı 400 mm olmalıdır.

Üç yaşından kiçik uşaqlar üçün əlçatan olan avadanlıqların məhəccər və kənarları (yıxılmadan qorunmaq üçün), pilləkənləri təhlükəsizlik tələblərinə müvafiq olmalıdır.

## Mündəricat


1. Tətbiq sahəsi ........ 1
2. Normativ istinadlar ........ 1
3. Əsas anlayışlar ........ 3
4. Ümumi müddəalar ........ 3
5. Yataqxana və hostel binalarının ərazilərinə dair tələblər........ 4
6. Həcm-planlaşdırma və konstruktiv həllərə dair tələblər ........ 6
6.1 Yataqxana və hostellərin həcm-planlaşdırma həllərinə dair ümumi tələblər........ 6
6.2 Yataqxanaların həcm-planlaşdırma həllərinə dair tələblər ........ 8
6.3 Hostellərin həcm-planlaşdırma həllərinə dair tələblər ........ 9
6.4 Konstruksiyalara dair tələblər. Uzunömürlülük və təmirəyararlılıq ........ 10
7. Yanğın təhlükəsizliyinin təmin edilməsi........ 11
8. Mühəndis-texniki avadanlıq........ 11
9. Daxili mühitə dair tələblər........ 13
10. Enerji effektivliyi........ 13

Əlavə 1........ 15
Əlavə 2........ 15
Əlavə 3........ 16
Əlavə 4........ 16
Əlavə 5........ 17
Əlavə 6........ 18
Əlavə 7........ 20
Əlavə 8........ 21